Hüquqi Yardım Mərkəzi

İNSAN HÜQUQLARI ÜZRƏ
HÜQUQŞÜNASLAR KOMİTƏSİ

İCTİMAİ BİRLİYİ

AZ 1014, 28 may küçəsi 5, mən 59/60, Bakı Azərbaycan

(99412) 447 55 60, 447 55 80

**№ 3704** **“ 06 ” may 2010-cu il**

**Azərbaycan Respublikası**
**Dövlət Statistika Komitəsinə**

# SORĞU

Azərbaycan Respublikası Uşaq Hüquqlarını Müdafiə Liqasının rəhbəri Bəkirov Yusif Seyfəddin oğlu hüquqi yardım almaq üçün Mərkəzimizə müraciət etmişdir.

Məlum olduğu kimi, avropa ölkələri ilə eyni müddətdə yay vaxtına keçilməsi üçün, eləcə də günün işıqlı vaxtının uzanması ilə əlaqədar enerji ehtiyatlarına qənaət edilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası ərazisində yay vaxtının tətbiq edilməsi haqqında" 17 mart 1997-ci il tarixli 21 saylı sərəncamına əsasən, respublika ərazisində hər il mart ayının son bazar günü əqrəblərin bir saat qabağa çəkilməsi ilə yay vaxtına keçilir. Lakin yay vaxtının tətbiq edilməsi iqtisadi baxımdan faydalı olsa da dünyanın müxtəlif ölkələrində aparılmış elmi araşdırmalara əsasən sübut edilmişdir ki, o, insanların səhhəti ilə bağlı müəyyən problemlər yaradır, insan həyatına olduqca mənfi təsir göstərir. Məhz bu səbəbdən icraatımızda olan işin məhkəməyə hazırlanması üçün bəzi hallar barədə Mərkəzimizə məlumat verməyinizi xahiş edirik.

İnformasiya əldə etmək haqqında Qanunun 24.1-ci maddəsinə əsasən, informasiya sorğusu ən qısa müddətdə, lakin 7 iş günündən gec olmayaraq icra edilməlidir.

Həmin qanunun 21.3-cü maddəsinə əsasən, informasiya sorğusunun təmin edilməsindən imtina barədə cavab Azərbaycan Respublikası qanunvericiliyinin müvafiq maddələri də göstərilməklə, aydın və əsaslandırılmış şəkildə tərtib edilməli, həmçinin burada sorğuçunun cavabdan məhkəməyə şikayət etmək hüququnun olduğu öz əksini tapmalıdır.

Yuxarıda qeyd olunanları və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının 30 sentyabr 2005-ci il tarixli Qanunun 15-ci (İnformasiya əldə olunması haqqında sorğu) və 17-ci (İnformasiya sahibinin sorğuçuya kömək göstərmək vəzifəsi) maddələrinə əsasən Sizdən, **aşağıdakı sualları cavablandırmağınızı və Mərkəzimizə məlumat verməyinizi xahiş edirik:**

**1. Azərbaycan Respublikasında "yay vaxtı" nın tətbiq edilməsinin, yəni hər ilin mart ayının sonuncu bazar günü saat əqrəblərinin bir saat irəli çəkilməsinin insanların** ***(xüsusilə uşaqlar, əlillər, meteohəssas insanlar, ürək çatışmazlığı olan və s. şəxslər)*** **səhhətinə və sağlamlığına hansı təsirləri var?**

**2. "Yay vaxtı" nın tətbiq edilməsinin insanların səhhətinə və sağlamlığına təsiri ilə bağlı ölkə daxilində aparılmış statistikanın nəticələrini bizə təqdim edəsiniz.**

**Hörmətlə,**

**Baş hüquqşünas**
**Əlibaba Rzayev**

**Tarix:** 06.05.2010-cu il